UOT 94(479.24); UOT 94

SƏBİNƏ HƏSƏNOVA
Bakı Dövlət Universitetinin doktorantı
sabinhasanova08@gmail.com

MÜASİR DÖVRDƏ ÇEXİYA VƏ AZƏRBAYCAN RESPUBLİKALARI ARASINDA MÜNASİBƏTLƏR

DOI: https://doi.org/10.36719/2708-065X/105/174-180

Çexiya və Azərbaycan Respublikaları arasında qarşılıqlı əlaqələr uzun ənənəyə sahibdir. Müstəqillik bərpa olunduqdan sonra hər iki dövlətin tarixində münasibətlərin yeni səhifəsi açılmışdır. Dövlətlərimiz arasında ikitərəfli siyasi, iqtisadi və humanitar əlaqələrin müxtəlif cəhətləri Azərbaycanın regionda vacib tərəfdaş olduğunu sübut edir. 1992-ci ilin 8 yanvarında Azərbaycanın müstəqilliyini tanıyan rəsmi Praqa respublikamızın müstəqilliyinin möhkəmlənməsinə mühüm töhfə verməklə yanaşı, Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanla əməkdaşlığa yüksək marağını nümayiş etdirmişdir. Diplomatik münasibətlər isə 29 yanvar 1993-cü ildə qurulmuş, sonrakı illərdə bir sıra sahələrdə faydalı əməkdaşlıq əlaqələri yaradılmışdır. İki post-sosialist ölkəsi arasında əlaqələr son illərə qədər intensiv xarakter daşımamış, əməkdaşlığın müqavilə-hüquq bazası cəmi 10 sənədlə məhdudlaşmışdır. Ulu öndərin xarici siyasət kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də Çexiya ilə münasibətlərə mühüm önəm verir. Dost ölkənin Prezidetinin Azərbaycana səfər proqramının uğurlu nəticəsi kimi əldə olunmuş bir sıra razılaşmalar bunun əyani təzahürüdür. Dövlətlərarası müzakirələr zamanı müxtəlif beynəlxalq və regional məsələlərdə eyni mövqedən çıxış edən Çexiya və Azərbaycan arasında münasibətlərin dərinləşdirilməsi üçün potensialın mövcudluğu aşkarlanmışdır.

Açar sözlər: Azərbaycan Respublikası, Çexiya, xarici siyasət, əməkdaşlıq.

Giriş. Çexiya və Azərbaycan Respublikası arasında diplomatik əlaqələr otuz ildən artıq tarixi ənənələrə malikdir. Azərbaycan-Çexiya əlaqələri gündən-günə inkişaf edir. İki ölkə arasındakı əməkdaşlıq bir çox sahələri əhatə edir. Azərbaycan çoxşaxəli beynəlxalq əlaqələrə sahibdir və ölkəmizin uğurlu qarşılıqlı əlaqələr qurduğu dövlətlərdən biri də Çexiyadır. Müstəqillik qazandıqdan sonra dövlətlərimiz arasında 1993-cü ildən başlayan münasibətləri təkcə tarixi nöqteyi-nəzərdən deyil, bununla yanaşı potensial inkişaf yolları baxımından dəyərləndirməliyik. Eyni zamanda, Çexiya və Azərbaycanın siyasi mütəfəkkirləri arasında diqqətəlayiq intellektual əlaqələrin olduğu danılmazdır. Belə ki, XX əsrdə Məmməd Əmin Rəsulzadə panslavizm fikirlərini Çex mütəfəkkirləri – Frantişek Palatski və Karel Havliçek Borovskinin əsərlərindən öyrənmişdir. Bu mütəfəkkirlərin əsərləri Məmməd Əmin Rəsulzadəni panturanizm və pantürkizm fikirlərinin yaranmasına ilhamlandırmışdır.

1980-ci illərin sonlarında Sovet İttifaqı parçalanmağa yaxın olduğu dövrdə Azərbaycan və Çex xalqları öz müstəqil dövlətlərini qurmaq üçün yeni imkan qazandılar. Sovet İttifaqının təsiri hər iki dövlətin sonrakı inkişafına əsaslı təsir göstərirdi. Çexlərin vəziyyəti nisbətən daha yaxşı idi. Bunun səbəbi isə, onlar azərbaycanlılarla müqayisədə kommunist rejiminin nəzarəti altında daha az yaşamaqları idi və İkinci Dünya müharibəsinə qədər mövcud olan demokratik ənənələrin bərpası, bazar iqtisadiyyatının qurulması daha tezliklə mümkün olmuşdur. [14]

Azərbaycan da öz tarixində yeni səhifə açmışdı. Lakin bu proses bir tərəfdən Dağlıq Qarabağda gedən müharibə, digər tərəfdən isə ciddi iqtisadi problemlərin və daxili qeyri-sabitliyin hökm sürdüyü mürəkkəb bir dövrdə baş verirdi.

Azərbaycanlılar Cənubi Qafqazda, çexlər isə Mərkəzi Avropada coğrafi mövqeyi cəhətdən tarixi kəsişmədə yaşayırlar. Əlverişli və strateji baxımdan əhəmiyyətli ərazilər heç də həmişə üstünlük vermir və hətta bir sıra hallarda əhali üçün müxtəlif çətinliklər də yaradır.

Çexiya Respublikası Avropa İttifaqı və NATO-ya üzv olmaqla tarixən üzləşdiyi mürəkkəb vəziyyəti həll etməyi bacardı və Azərbaycan öz növbəsində qarşılıqlı əməkdaşlığımız çərçivəsində müxtəlif təcrübələrin mübadiləsində maraqlıdır. Hər iki dövlət demoktatiya və ölkənin rifahı uğrunda davamlı addımlar atır.

Çexiya və Azərbaycan Respublikları arasında münasibətlər. Çexiya və Azərbaycan arasında münasibətlərin tarixi yalnız müasir dövrü əhatə etmir, onlar arasındakı münasibətlər daha erkən tarixdən başlayır. Tarixi faktlardan bizə məlum olan ilk çex mənşəli səyyah müasir Azərbaycanın yerləşdiyi əraziləri 1430-cu illərdə ziyarət edib, onu öz səfər məlumatlarında qeyd etmişdir. XVI əsrin sonu - XVII əsrin əvvəllərində Müqəddəs Roma imperatoru II Rudolf və Şah Abbas arasında diplomatik münasibətlər qurulmuşdur. Bu dövrdə Təbrizdən Praqaya və Praqadan Təbrizə səfər edən elçilər öz səyahətlərini təsvir edir, həm ölkəmiz, həm də digər diyarlar haqqında bizə maraqlı məlumatlar gətirirdilər [3, s.56].

Münasibətlərimizin hazırkı vəziyyətinə nəzər saldıqda parlaq məqamlar və nəticələri aydın şəkildə müşahidə etmək mümkündür. Ölkələrimiz "Strateji tərəfdaşlıq haqqında Memorandum" imzalamışdır. Çexiya Respublikası öz neft istehlakının üçdə birini Azərbaycan neftinin hesabına ödəyir. Azərbaycandan olan turistlər Praqa və Karlovı Varı şəhərlərini tətil üçün dinc və gözəl məkan hesab edirlər. Hər iki ölkənin biznes adamları etibarlı tərəfdaş və təchizatçı tapmaq məqsədilə tez-tez qarşılıqlı səfərlər edirlər. Azərbaycanlı tələbələr Çexiya universitetlərində yeni biliklərə yiyələnir və çexlər özləri üçün uzaq, lakin dost Azərbaycanı tədricən kəşf edirlər [13].

Qarşılıqlı əlaqələrimiz müxtəlif səviyyəli sıx ünsiyyətimizlə güclənir. Prezidentlərimiz və nazirlər müntəzəm şəkildə görüşür, müxtəlif formatlı tədbirlərdə fikir mübadiləsi aparırlar. Bu baxımdan Çex-Azərbaycan Müştərək Komissiyası çərçivəsində aparılan danışıqları qeyd etmək yerinə düşər. Bundan əlavə, Çexiya Respublikasının Parlamenti və Azərbaycan Respublikasının Milli Məclisi arasında da sıx münasibətlər mövcuddur. Hər iki ölkənin universitetləri arasında əməkdaşlıq maraqlı nəticələr verir. Elmlər Akademiyalarımız arasında imzalanan razılaşmaya əsasən, gələcəkdə elm sahəsində də qarşılıqlı əlaqələrin gücləndirilməsini gözləyə bilərik.

Azərbaycanla Çexiya Respublikası arasında münasibətlərin həmçinin konkret praktiki ifadəsi də var: bunlardan biri Azərbaycan neftinin boru kəməri ilə Çexiyanın neft emalı müəssisəsinə çatdırılması, digəri isə Azərbaycandan başlayan və Asiya ilə Avropanı birləşdirən dəmiryolu xəttinin Çex şirkəti tərəfindən inşa edilməsidir. Bundan əlavə, iki ölkə arasında mövcud olan iqtisadi əməkdaşlığa dair digər nümunələri də göstərmək olar. Xüsusilə ticari əlaqələrin dərin tarixə malik olmasını görmək olar. Məsələn, keçmiş Çexoslovakiya malları bütün SSRİ-də, o cümlədən Azərbaycanda da çox populyar idi. Çexoslovakiyada istehsal olunan ayaqqabı, geyim, kənd təsərrüfatı məhsulları, zavod və hətta dağ-mədən avadanlığından başlayaraq maşın, lokomotiv və ya təyyarələr kimi daha iri məhsullar keyfiyyətli və dəbli dizaynı sayəsində hər zaman böyük maraq doğurmuşdur. Hətta bu gün bir çox Azərbaycan ailəsində sovet dönəmində alınan və hazırda ailə üçün dəyərli miras hesab edilən Çex xrustalını və ya çini qabları tapmaq mümkündür.

Çex mallarının keyfiyyətinin azərbaycanlılar tərəfindən unudulmaması ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasında və 2014-cü ildə 2 milyard ABŞ dollarına çatmasında özünü bariz şəkildə nümayiş etdirir. Bunun sayəsində Çex məhsulları artıq Azərbaycan bazarında daha geniş təmsil olunur. Şirkətlərimiz Azərbaycanda yol və dəmiryolu şəbəkələrinin müasirləşdirilməsinə kömək edir, Bakı sakinləri yeni Çex avtobuslarının rahatlığından faydalana bilir və bir neçə xəstəxana Çex istehsalçılarının tibbi avadanlıqlarından istifadə edir. Bundan əlavə, son 10 il ərzində Çexiya bankları Azərbaycandakı müxtəlif layihələrə 1,5 milyard ABŞ dollarından çox vəsait yatırıblar. İnvestorlarımız bu günə kimi bir dənə də qaytarılmamış kreditin olmamasını və çox müsbət təcrübə ilə üzləşdiklərini qeyd edirlər [3, s.60].

Qədim İpək Yolunun üstündəki strateji mövqeyi və Cənubi Qafqaz regionunda oynadığı mühüm rol Azərbaycana nəinki Çexiya Respublikası, həm də ölkəmizin üzv olduğu Avropa inteqrasiya institutları ilə də qarşılıqlı səmərəli münasibətlərin inkişaf etdirilməsi istiqamətində imkanlar açır [16].

Azərbaycan Respublikası ilə Avropa İttifaqı və NATO arasında münasibətlərin səviyyəsi hər birimizə yaxşı məlumdur, lakin Azərbaycanla Avropa dövlətləri arasında əməkdaşlığın bir istiqamətinə çevrilə biləcək əlavə bir format da mövcuddur.

1991-ci ildən etibarən Çexiya Respublikası Vişeqrad Qrupunun (Visegrad Group) üzvüdür. Mərkəzi Avropa dövlətlərini birləşdirən bu regional təşkilat digər tərəfdaşları (Benilüks, Skandinaviya Şurası) və "V4+" formatı çərçivəsində müstəqil dövlətlərlə əməkdaşlıq etmək iddiasına malik

mühüm regional tərəfə çevrilmişdir. Bu format ikitərəfli və çoxtərəfli səviyyədə əməkdaşlığın inkişafı üçün faydalı platforma rolunu oynamaqdadır [1, s.288].

Bundan əlavə, Azərbaycan GUAM təşkilatının üzvüdür və iki regional qrup arasında əməkdaşlıq üçün geniş və maraqlı potensial mövcuddur. Enerji təhlükəsizliyi, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və yaxud turizmin inkişafı kimi mövzular birgə tədbirlərimiz çərçivəsində müzakirə oluna biləcək məsələlər sırasındadır. Biz bu sahələrdə zəngin təcrübə toplamışıq. Bu təcrübəni bölüşmək bütün iştirakçı tərəflərə faydalı nəticələr verə bilər.

Tərəflər arasındakı səmərəli əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafına təkan verən fundamental faktorlar sırasında elmi-texniki, humanitar və iqtisadi sahədə təmasların sıxlaşdırılması, bu istiqamətdə qarşılıqlı səfərlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, Azərbaycanın Çex Respublikasındakı səfiri Fərid Şəfiyev bu ölkənin Zlin regionuna səfəri çərçivəsində bölgənin rəhbərliyi və Ticarət Palatası tərəfindən Zlin şəhərində təşkil olunmuş "Azərbaycan biznes günü" Business Day Azerbaijan" adlı tədbirdə iştirak edib. Tədbirin açılışında Zlin regionu qubernatorunun müavini Yaroslav Drozd .

Səfir F.Şəfiyev çıxışında ölkəmizdə aparılan islahatlar, əldə olunmuş nailiyyətlər, o cümlədən, Azərbaycan-Çexiya münasibətləri haqqında ətraflı məlumat verib. Bununla yanaşı, diplomat Azərbaycanın investisiya və biznes imkanlarından da bəhs edib. Eyni zamanda, Çexiya sənaye və ticarət nazirinin müşaviri Milan Hovorka, həmin nazirliyin 1-ci xarici iqtisadi siyasət şöbəsinin direktoru Martin Pospişil, habelə Çex Respublikası Xarici İşlər Nazirliyinin Qərbi və Şimali Avropa ölkələri bölməsinin nümayəndəsi, bu ölkənin Azərbaycanda səfiri olmuş Radek Matula çıxışlarında dövlətlərimiz arasında ikitərəfli siyasi, iqtisadi və humanitar əlaqələrin müxtəlif cəhətlərinə diqqət yetirib və Azərbaycanın regionda vacib tərəfdaş olduğunu qeyd ediblər. Tədbirdə Çexiya İxracatın Zəmanəti və Sığortası Cəmiyyətinin və Çexiya İxrac Bankının nümayəndələri çıxış ediblər.

Qeyd edək ki, Azərbaycanla Çexiya arasındakı əlaqələr zəngin inkişaf yoluna malikdir. Çexiya Azərbaycanın müstəqilliyini 1992-ci il 8 yanvar tarixində tanıyıb. Ölkələr arasında diplomatic münasibətlər 1993-cü il yanvarın 29-da qurulub. Azərbaycanın bu ölkədəki səfirliyinin açılış mərasimi 2007-ci il avqustun 15-də baş tutub. Çexiyanın ölkəmizdəki səfirliyi isə 2009-cu il dekabrın 1-də təsis edilib [18].

Azərbaycan ilə Çexiya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər mütəmadi xarakter daşıyır. 2002-ci ilin noyabrında Ümummilli lider Heydər Əliyevin NATO-nun Praqadakı Sammitində iştirak etmə məqsədilə Çexiyaya ilk səfəri gerçəkləşib. 2009-cu ilin mayında Prezident İlham Əliyev "Şərq Tərəfdaşlığı" və enerji sammitlərində iştirak etmək üçün bu ölkəyə işgüzar səfər edib. Bundan iki il sonra Çex Respublikasının o zamankı Prezidenti Vatslav Klausun ölkəmizə rəsmi səfəri gerçəkləşib. 2012-ci ilin aprel ayında isə Prezident İlham Əliyevin Çexiyaya növbəti səfəri baş tutub. Hökumət başçıları səviyyəsində isə 2009-cu ildə Çexiyanın Baş nazirinin ölkəmizə işgüzar səfəri gerçəkləşib [2, s.102].

İki ölkə əlaqələrinin inkişafına təkan verən görüşlərdən biri 2012-ci ildə Praqada dövlət başçıları səviyyəsində keçirilən görüş olub. Görüş çərçivəsində "Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Çexiya Respublikasının Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsi arasında standartlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Çexiya Respublikası Texniki Standartlaşdırma, Metrologiya və Dövlət Sınaqları üzrə İdarəsinin prezidenti Milan Holeçek, "Azərbaycan Respublikası Hökuməti və Çex Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula, "Azərbaycan Respublikası və Çexiya Respublikası arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş"i Azərbaycanın Çexiyadakı səfiri Tahir Tağızadə və Çexiyanın Azərbaycandakı səfiri Radek Matula imzalayıblar [5, s.262].

Prezident İlham Əliyev isə bildirib ki, 2011-ci ildə Çexiya Prezidentinin Azərbaycana səfəri və səfər zamanı aparılan danışıqlar, əldə edilmiş razılaşmalar bugünkü sürətli inkişafı müəyyən edib: "Mən bu gün söhbət əsnasında qeyd etdim ki, biz Çexiya şirkətlərini Azərbaycanda görmək istəyirik

və onların uğurlu fəaliyyəti - istər investor, istər kontraktçı kimi fəaliyyəti üçün lazım olan şəraiti yaratmağa hazırıq. Azərbaycanda çoxsaylı infrastruktur layihələri icra edilir və Çexiya şirkətlərinin çox gözəl iş təcrübəsi, çox gözəl nüfuzu vardır və biz onları tərəfdaşlarımız arasında görmək istəyirik. Əminəm ki, bu səfərin gözəl nəticələrindən biri də məhz bu olacaqdır" [17].

Eyni zamanda, iki ölkənin siyasi əlaqələri çox sürətlə inkişaf edir. Yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsi bunun əyani sübutudur. Ticarət dövriyyəsi hər il böyük həcmdə artır. Bu da iqtisadi sahədəki uğurlu əməkdaşlıqdan xəbər verir. Çexiyanın idxal etdiyi neftin 25 faizi Azərbaycan neftidir. Bu, o deməkdir ki, iki ölkə arasında sıx enerji tərəfdaşlığı mövcuddur. Həmçinin, Azərbaycan ilə Çexiya arasında imzalanan sənədlərin bir qismi mədəniyyət və turizm sektorunu əhatə edir və beləliklə, humanitar sahədəki əməkdaşlığa da böyük diqqət göstərilir.

Azərbaycan üçün ölkələrlə münasibətdə ən vacib məsələlərdən biri həmin dövlətlərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyidir. Prezident İlham Əliyevlə Çexiyanın keçmiş Prezidenti Vatslav Klausun sözügedən mətbuat konfransında bu məsələ ilə bağlı suala cavabında Çexiyanın dövlət başçısı bu məsələnin iki ölkə münasibətlərində diqqət mərkəzində olduğunu bildirib: "Mən Azərbaycanın mövqeyini yaxşı anlayıram. Təbii ki, mən də tam və qəti olaraq heç cür razılaşa bilməzdim ki, ölkəmin bir hissəsi işğal altında olsun. Amma əfsuslar olsun ki, bu vəziyyətin məhz nizamlanması ilə bağlı mənim hər hansı bir xüsusi, möcüzəli həll variantım yoxdur, təklif edə bilmərəm". Çexiya Avropa İttifaqına üzv ölkə olaraq Azərbaycanın qurumla əlaqələrini dəstəkləyir. Bu barədə keçmiş Prezident Vatslav Klaus bəyan edib ki, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramı müsbət bir layihədir və ölkəsi həmin layihənin yaradıcılarından biridir. Eyni zamanda, Çexiya tərəfi Azərbaycanın həmin proqram çərçivəsində iştirakını geniş şəkildə müzakirə edib və Azərbaycanla aparılan əməkdaşlığa müsbət yanaşır. Onun sözlərinə görə, ölkəsi Azərbaycanın bu sahədə mövqeyini bilir və bu tərəfdaşlıq Azərbaycanın mövqeyi, maraqları ilə də üst-üstə düşür. Vatslav Klaus Azərbaycanın bu istiqamətdə qəti addımlarını sonadək davam etdirəcəyinə əminliyini ifadə edib [17].

İki ölkənin iqtisadi əlaqələrinin inkişafı üçün də geniş imkanlar mövcuddur. Xatırladaq ki, 2013-cü ilin sentyabrında Çexiya-Azərbaycan Ticarət Palatası, Çexiyanın ölkəmizdəki səfirliyi və Çexiya Ticarət Palatasının təşkilatçılığı ilə hər iki ölkənin iş adamlarının görüşü təşkil olunub. Tədbirin keçirilməsində məqsəd neft-qaz, tikinti, mühəndislik və istehsalat, maşınqayırma, tekstil, pərakəndə ticarət, bankçılıq, maliyyə, sığorta və digər sektorlar üzrə biznes fəaliyyəti ilə məşğul olan Çexiya və Azərbaycan şirkətlərini, iş adamlarını bir araya gətirmək və əməkdaşlıq imkanlarının birgə müzakirə edilməsinə şərait yaratmaq olub. Tədbirdə çıxış edən səfir Radek Matula Azərbaycanın sürətlə müasirləşdiyini vurğulayaraq bildirib ki, son illərdə bu istiqamətdə böyük irəliləyiş əldə edilib. Bakı böyük tikinti meydançasına çevrilib, regionlarda da bir çox infrastruktur layihələri həyata keçirilir. Burada çex şirkətləri üçün böyük imkanlar mövcuddur. O qeyd edib ki, Çexiya və Azərbaycan dost ölkələrdir, həmçinin, bir çox sahələrdə güclü tərəfdaşdırlar. Çexiya Ticarət Palatasının layihələr üzrə direktoru Kristina Leinerova palatanın gördüyü işlər, habelə Çexiya tərəfdən tədbirdə iştirak edən nümayəndə heyəti barədə məlumat verib. Çexiya-Azərbaycan Ticarət Palatasının prezidenti və "Baker Tilly" Azərbaycan şirkətinin tərəfdaşı Samir Vəliyev rəhbəri olduğu qurum haqqında məlumat verərək deyib: "Çexiya-Azərbaycan Ticarət Palatası bu ilin əvvəlində təsis edilmişdir. Missiyamız Azərbaycan və Çexiya respublikalarının iş adamları, biznes qurumları və şirkətləri arasında sağlam, davamlı əməkdaşlıq əlaqələrinin yaradılmasına və inkişafına dəstək göstərməkdir". S.Vəliyev əmin olduğunu bildirib ki, bu görüş hər iki tərəf üçün faydalı olacaq, Çexiya və Azərbaycan arasında işgüzar münasibətlərin inkişafına müsbət təsir göstərəcək və gələcəkdə əlaqələrin daha da dərinləşməsinə zəmin yaradacaq [3, s.78].

Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan hissəsinin yenidən qurulması 2019-cu ildə "Moravia Steel"in rəhbərlik etdiyi Çexiya şirkətləri qrupu tərəfindən başa çatdırılıb. Eyni zamanda, Azərbaycan bu marşruta sərmayə qoymağa davam edir və 120 milyon dollardan çox sərmayə qoymağı qarşısına məqsəd qoyub. Nəticədə layihənin gücü 1 milyon tondan 5 milyon tona çatdırılacaq. [20]

Azərbaycan Respublikası ilə Çexiya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə diplomatik korpusun nümayəndələri, Milli Məclisin deputatları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə tədbir keçirilib [19].

Tədbirdə çıxış edən Çexiyanın Azərbaycandakı səfiri Milan Sedlaçek son 30 ildə Çexiya ilə Azərbaycan arasında əlaqələrin dinamik inkişafından məmnunluğunu ifadə edib. Səfir iki ölkə arasında müxtəlif sahələrdə mövcud əlaqələrin bundan sonra da inkişaf edəcəyinə və dərinləşəcəyinə əminliyini ifadə edib. Milli Məclisin Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin zəngin tarixinə toxunub.

Nəticə. Bununla belə, paytaxt şəhərlərimiz – Praqa və Bakı arasında təxminən 3000 km uçuş məsafəsi olmasına və əhalimizin fərqli dillərdə danışmasına baxmayaraq, bizi birləşdirən amillər bizi ayıran məqamlardan daha çoxdur. Konkret nəticələr verən, insanlarımız arasında ünsiyyəti asanlaşdıran və iqtisadi əlaqələrimizi dərinləşdirən əməkdaşlıq ölkələrimiz arasında münasibətlərin gələcək inkişafı üçün mütləq şərtdir. Onların potensialına dair şübhələr yoxdur və biz bu potensialdan mümkün qədər çox istifadə etməliyik. Qeyd edək ki, Çexiyanın ticarət tərəfdaşları arasında Azərbaycan böyük potensiala malikdir. Azərbaycan Çexiyanın ixrac strategiyasında maraqlı ölkəyə çevrilib. Ümumiyyətlə, iki ölkə rəsmilərinin qarşılıqlı səfərlərinin intensivliyinin artması əlaqələrə dinamiklik gətirib. Reallıqlar göstərir ki, mövcud dostluq və tərəfdaşlıq münasibətləri bundan sonra daha da möhkəmlənəcək.

ƏDƏBİYYAT

1. Baxşəliyev Tahir, Slavyan ölkələri tarixi:1917-2015, Bakı, 2016, 372 s.
2. Hüseynov Həsən, Heydər Əliyev Azərbaycanın tarixi, İlham Əliyev bu tarixin davamıdır, Bakı, 2004, 317 s.
3. History Forever, History of Czech Republic & Yugoslavia: Bohemia, Czechoslovakia, Czech Republic & Czechia, Amazon Digital Services LLC - Kdp, 2022, 96p.
4. Hochman Jiří, Fawn Rick, Historical Dictionary of the Czech State, Scarecrow Press, 2010, 354 p.
5. William Mahoney, The History of the Czech Republic and Slovakia, Bloomsbury Academic, 2023, 320 p.
6. Məmmədov Habil, Slavyan ölkələri tarixi: uzaq keçmişdən XX əsrin 20-ci illərinədək, Bakı, Elm və Təhsil, 2020, 676 s.
7. Qasımlı Musa, Azərbaycan Respublikasının tarixi: 1991-2021, Bakı, BDU nəşriyyatı, 2021, 520 s.
8. Süleymanov Elçin, Azərbaycan İqtisadiyyatı, Bakı, Şərq-Qərb, 2016, 384 s.
9. Peter Demetz, Prague in Black and Gold: The History of a City, 1997, 411 p.
10. Piriyev Abbas, Siyasi strategiya və milli təhlükəsizlik problem, Bakı, Bakı Dövlət Universiteti, 2002, 530 s.
11. Valiyev Anar, Azerbaijan's Geopolitical Landscape: Contemporary Issues, 1991–2018, Baku, 2020.
12. Шарый Андрей, Чешское время: большая история маленькой страны: от святого Вацлава до Вацлава Гавела, Азбука-Аттикус, 2022, 592 с.
13. Embassy of the Czech Republic in Baku. URL: https://mzv.gov.cz/baku/en/index.html [19.04.2024].
14. Çex Respublikası / Azərbaycan Respublikası XİN saytı. URL: https://mfa.gov.az/az/category/avropa/cexiya [19.04.2024].
15. History of the Czech Republic / Embassy of the Czech Republic in Stockholm. URL: https://mzv.gov.cz/stockholm/en/information_about_the_czech_republic/history/index.html [21.04.2024].
16. Czechia. Political, social and economic background and trends / European Commission, 27 November 2023. URL: https://eurydice.eacea.ec.europa.eu/national-education-systems/czechia/historical-development [21.04.2024].
17. Timeline: Czech Republic / Oxford Reference, 2012. URL: https://www.oxfordreference.com/display/10.1093/acref/9780191736322.timeline.0001 [21.04.2024].
18. Nurlan Aliyev. Azerbaijan and Czechia: History and Future of Relatios / İnstitute of İnternational Relations Prague, 03/05/2017. URL: https://www.iir.cz/azerbaijan-and-czech-republic-history-and-perspectives-of-relations [21.04.2024].

19. Azerbaijan, Czech mark 30th anniversary of diplomatic relations / AzərTac, 03.05.2023. URL: https://azertag.az/en/xeber/azerbaijan_czech_mark_30th_anniversary_of_diplomatic_relations-2598764 [21.04.2024].
20. Czech Republic aims to develop cooperation in the railway sector with Azerbaijan / Azernews, 8 June 2023. URL: https://www.azernews.az/business/210842.html [21.04.2024].

САБИНА ГАСАНОВА
докторант Бакинского Государственного Университета

ОТНОШЕНИЯ МЕЖДУ ЧЕШСКОЙ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ В СОВРЕМЕННЫЙ ПЕРИОД

Взаимоотношения между Чехией и Азербайджанской Республикой имеют давнюю традицию. После восстановления независимости в истории обеих стран открылась новая страница отношений. Различные аспекты двусторонних политических, экономических и гуманитарных отношений между нашими государствами доказывают, что Азербайджан является важным партнером в регионе. 8 января 1992 года официальная Прага, признавшая независимость Азербайджана, внесла важный вклад в укрепление независимости нашей республики и проявила высокий интерес к сотрудничеству с Азербайджаном, являющимся ведущим государством Южного Кавказа. Дипломатические отношения были установлены 29 января 1993 года, а в последующие годы установились полезные отношения сотрудничества в ряде областей. Отношения между двумя постсоциалистическими странами до последних лет не были интенсивными, а правовая база сотрудничества ограничивалась всего 10 документами. Президент Ильхам Алиев, успешно продолживший внешнеполитический курс великого лидера, придает большое значение отношениям с Чехией. Ярким свидетельством этого является ряд соглашений, достигнутых по итогам успешного визита президента дружественной страны в Азербайджан. В ходе межгосударственных дискуссий выявился потенциал углубления отношений между Чехией и Азербайджаном, занимающими единую позицию по различным международным и региональным вопросам.

Ключевые слова: Азербайджанская Республика, Чехия, внешняя политика, сотрудничество.

SABINA HASANOVA
Doctoral student of Baku State University

RELATIONS BETWEEN THE CZECH REPUBLIC AND AZERBAIJAN REPUBLIC IN THE MODERN PERIOD

Mutual relations between the Czech Republic and the Republic of Azerbaijan have a long tradition. After the restoration of independence, a new page of relations was opened in the history of both countries. Various aspects of bilateral political, economic and humanitarian relations between our states prove that Azerbaijan is an important partner in the region. On January 8, 1992, the official Prague, which recognized the independence of Azerbaijan, made an important contribution to the strengthening of the independence of our republic, and showed a high interest in cooperation with Azerbaijan, which is the leading state of the South Caucasus. Diplomatic relations were established on January 29, 1993, and useful cooperation relations were established in a number of fields in the following years. Relations between the two post-socialist countries were not intensive until recent years, and the legal basis of cooperation was limited to only 10 documents. President Ilham Aliyev, who successfully continued the great leader's foreign policy course, attaches great importance to relations with the Czech Republic. A number of agreements reached as a successful result of the visit of the President of a friendly country to Azerbaijan is a clear manifestation of this. During interstate

discussions, the potential for deepening relations between the Czech Republic and Azerbaijan, which take the same position on various international and regional issues, was revealed.

Keywords: Republic of Azerbaijan, Czech Republic, foreign policy, cooperation.

Məqalənin redaksiyaya daxil olduğu tarix:19 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.ü.f.d. Məmmədağa Baxışov.